*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 avqust 2018-ci il № 59 (2275) Qiyməti 25 qəpik


# Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

*Avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub.*

*AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.*



Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına məlumat verdi ki, nazirlik "ŞA İnşaatçı" Mənzil Tikinti Kooperativi tərəfindən inşa olunan binadan ümumilikdə 35 mənzili satın alıb. Bu mənzillərdən 23-ü Qarabağ müharibəsi əlillərinə, 12-si isə şəhid ailələrinə verilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Daimi qaz, su və işıqla təchiz edilən mənzillər yüksək səviyyədə təmir olunub, bütün zəruri avadanlıq, o cümlədən mətbəx mebeli quraşdırılıb. Bundan başqa, mənzillərdə kombi sistemi də qurulub.

Sonra Prezident İlham Əliyev əlil və şəhid ailələrinin üzvləri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

- Bu gün Lökbatan qəsəbəsində yeni inşa edilmiş yaşayış kompleksində Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 35 mənzil təqdim olunur. Dövlət bu mənzilləri satın alıb və sizə hədiyyə edir. Eyni zamanda, bu gün sizə 136 minik maşını da verilir. Bu da dövlət tərəfindən sizə verilən növbəti hədiyyədir.

Deməliyəm ki, son iyirmi il ərzində şəhid ailələrinə, müharibə əlillərinə 5500-dən çox fərdi ev və mənzil verilmişdir. Altı mindən çox minik maşını verilmişdir. Yəni, bu, dövlətin sizə olan qayğısının təzahürüdür və bu siyasət bu gün də davam etdirilir. Dediyim kimi, bu gün 35 mənzil verilir. Ancaq ilin sonuna qədər nəzərdə tutulan rəqəm əlavə 170 mənzil və fərdi evdir. Bununla belə, nəzərə alsaq ki, hələ də növbədə kifayət qədər insan var, - təqribən 4 minə yaxın insan növbədədir, - mən əlavə vəsait ayıraraq bu il minimum daha 300 mənzilin alınması ilə bağlı qərar qəbul edəcəyəm. Beləliklə, ehtiyac içində yaşayan 500-ə yaxın insan ilin sonuna qədər mənzillərlə təmin ediləcək. Biz çalışmalıyıq ki, bu proqramı tezliklə başa çatdıraq. Əlbəttə ki, buna nail olmaq üçün kifayət qədər maliyyə vəsaiti olmalıdır. Biz imkan daxilində bu vəsaiti təmin edib, təşkil edib sizə mənzilləri təqdim edəcəyik. Hələ də mənzillə təmin olunmayan şəhid ailələri, müharibə əlilləri mütləq mənzillər alacaqlar.

Dövlət öz siyasətini aparır. Bu kateqoriyadan olan insanların məşğulluq problemləri də həll olunur. Bildiyiniz kimi, biz indi genişmiqyaslı özünüməşğulluq proqramının icrasına başlamışıq. Hər il ən azı 7 min ailə bu proqramla əhatə olunacaq. Hər bir ailəyə minimum 5 min manat dəyərində ləvazimat, vəsait, müxtəlif təyinatlı avadanlıqlar veriləcək ki, onlar öz biznesini, öz işini qura bilsinlər. Göstəriş verilmişdir ki, müharibə əlilləri, şəhid ailələri də mütləq bu proqramla əhatə olunsunlar. Artıq bu işlər başlamışdır, təlim kursları aparılır. Beləliklə, biz məşğulluq probleminin həllinə də çox ciddi töhfə vermiş olacağıq.

Dövlətimizin sosial siyasəti uğurla aparılır. Görülmüş işlər bunun bariz nümunəsidir. Dediyim rəqəmlər onu göstərir ki, dövlət həmişə sizin yanınızdadır. Eyni zamanda, müharibədən, işğaldan əziyyət çəkən bizim köçkün, qaçqın soydaşlarımız var. Onlar da dövlət tərəfindən qayğı ilə əhatə olunurlar. Son illərdə 100-ə yaxın qəsəbə salınıb. Üç yüz minə yaxın köçkün evlərlə, mənzillərlə təmin edilib. Bu siyasət davam etdirilir. Bu il Qaradağ rayonunun Qobu qəsəbəsində min mənzillik yeni köçkün qəsəbəsi salınmışdır. Orada da bütün infrastruktur, məktəb, bütün lazımi məsələlər öz həllini tapıb. İlin sonuna qədər isə 4 min köçkün ailəsi, təqribən 20 min insan yeni mənzillərlə təmin ediləcək. Yəni, biz ancaq bu layihələri nəzərə alsaq görərik ki, nə qədər böyük qayğı göstərilir və bu məqsədlərə çatmaq üçün dövlət nə qədər vəsait xərcləyir.

**(Ardı 2-ci səhifədə)**

# Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub

(Əvvəli 1-ci səhifədə)



Bu siyasət davam etdiriləcək. Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir. Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə, sosial cəhətdən az müdafiə olunan vətəndaşlar, işğaldan əziyyət çəkmiş, əlil olmuş, yaxınlarını itirmiş insanlar, onların yaşayışı, məşğulluğu, həyat səviyyəsi bizim üçün prioritet məsələdir. Biz imkan daxilində bu məsələləri həll edirik. Deyə bilərəm ki, işğaldan və etnik təmizləmədən əziyyət çəkmiş dövlətlər arasında Azərbaycanda bu sahədə görülən işlər ən yüksək səviyyədədir. Bunu beynəlxalq təşkilatlar da, BMT də qeyd edir və Azərbaycan təcrübəsi bir çox ölkələr üçün nümunə kimi göstərilir. Bəlkə də dünyada öz vətəndaşlarına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Bu, bir daha bizim siyasətimizin niyyətini əks etdirir. Bu siyasət davam etdiriləcək. Bir daha demək istəyirəm ki, bu gün növbədə duran bu kateqoriyadan olan bütün insanlar imkan daxilində mənzillərlə, evlərlə, maşınlarla təmin ediləcəklər.

O ki qaldı bizim iqtisadi potensialımıza, - çünki bütün bu işləri öz daxili imkanlarımız hesabına görürük, heç bir yerdən yardım almırıq, - iqtisadiyyatımız inkişaf edir. Bu il də yaxşı nəticələr olacaqdır. Gələn il daha yaxşı nəticələr olacaq. Artıq ilkin proqnozlar verilibdir. Gələn il sürətli inkişaf ili olacaq. Beləliklə, maliyyə imkanlarımız daha da genişlənəcək və ölkə qarşısında duran əsas vəzifələrin, infrastruktur layihələrin, eyni zamanda və ilk növbədə, sosial məsələlərin həlli üçün biz bu vəsaitdən istifadə edib sizin problemlərinizi həll edəcəyik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə isə, o həllin bir yolu var: ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Bunu tarix deyir, beynəlxalq hüquq deyir və bütün dünya dövlətləri ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Keçən ay Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı Azərbaycana çox böyük dəstək ifadə olunmuşdur. Bu, bizim növbəti diplomatik qələbəmizdir. Eyni zamanda, keçən ay NATO-nun zirvə görüşünün nəticəsi olaraq qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilib. Yəni, bunlar çox ciddi siyasi sənədlərdir, həqiqəti, beynəlxalq hüququ əks etdirən sənədlərdir. Eyni zamanda, işğalçı ölkəyə göndərilən çox ciddi siqnallardır. Onlar bilsinlər ki, mötəbər beynəlxalq təşkilatlar bu məsələni diqqətdə saxlayır və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Münaqişənin həlli yalnız bu prinsiplər əsasında ola bilər və olmalıdır.



İşğalçı dövlət indi ağır günlər yaşayır. İyirmi il Ermənistana rəhbərlik etmiş kriminal xunta rejimi çökdü. Onların işğalçı siyasəti iflasa uğradı. Onların bu vəziyyətə düşməsinin əsas səbəbi işğal siyasətidir. Çünki əgər işğal siyasəti olmasaydı, Ermənistan regional layihələrdən təcrid edilməyəcəkdi və beləliklə, bizim imkanlarımızdan faydalana bilərdi. Məhz işğalçılıq siyasətinə görə Ermənistan bu gün bu ağır, təcrid edilmiş vəziyyətdədir və iqtisadi inkişaf üçün heç bir perspektiv yoxdur. O vaxta qədər ki, Azərbaycanla münasibətlər normallaşmayacaq. Normallaşmanın da bir yolu var - işğalçı dövlət bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxmalıdır. Necə ki, dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurası 25 il əvvəl qətnamə qəbul edib və orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və qüvvədə qalacaq. Ona görə münaqişənin həlli üçün yol, bax, bu yoldur.

Ermənistanın yeni hökuməti bunu yaxşı başa düşməlidir. Əvvəlki kriminal xunta rejiminin səhvlərini buraxmamalıdır. Düzdür, yeni hökumət indi daxili işlərlə daha çox məşğuldur, ancaq bildirməliyəm ki, onlar tərəfindən səslənən ziddiyyətli bəyanatlar həm bizdə, həm bu məsələ ilə məşğul olan ölkələrdə və beynəlxalq təşkilatlarda təəccüb doğurur. Çünki birbirini təkzib edən bu bəyanatlar başadüşülən deyil. Bir tərəfdən deyirlər ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağın qondarma rejimi ilə danışıqlar aparmalıdır. Bu, ümumiyyətlə, qəbuledilməzdir və bu, elə bir təklifdir ki, bu təklifi verən tərəf bəri başdan bilir ki, bu, qəbul edilməyəcək. Digər tərəfdən, bu təklif vasitəçilər tərəfindən heç vaxt qəbul edilməyəcək. Üçüncü tərəfdən, o bəyanatdan bir müddət keçəndən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşür və danışıqlara başlayır. Yəni, tamamilə bir-birini təkzib edən, bir-birinə zidd olan yanaşmadır. Əlbəttə, biz başa düşürük, yeni hökumətə müəyyən qədər vaxt lazımdır ki, beynəlxalq münasibətlərdə mövcud olan praktikanı düzgün təhlil etsin. Ancaq, əlbəttə ki, bu bəyanatlar sülh prosesinə vurulmuş növbəti zərbələrdir və bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür. Çünki onlar işğal siyasətini davam etdirmək fikrindədirlər. Hələlik, biz belə qənaətə gələ bilərik.

Eyni zamanda, Ermənistandan sülhə yönəlmiş çağırışlar da edilir, biz də bu çağırışları eşidirik. Əlbəttə, biz də sülh istəyirik, amma biz torpaqlarımızı istəyirik. Torpaqlarımız qayıtmayana qədər sülh olmayacaq və Ermənistanın yeni rəhbərliyi bunu çox yaxşı başa düşməlidir. Sülh istəyirlərsə, erməni əsgəri torpaqlarımızdan çıxmalıdır. Erməni əsgərinin Azərbaycan torpağında nə işi var?! Müharibədən əziyyət çəkmiş, həlak olmuş, əlil olmuş Azərbaycan vətəndaşları öz torpağında həlak olublar, əlil olublar, Ermənistan torpağında yox. Ona görə münaqişənin həllinin bir yolu var - işğalçı qüvvələr bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Onda bölgədə sülh yaranar. Onda Ermənistan ilə Azərbaycan arasında əlaqələr yarana bilər. Onda regionun geosiyasi vəziyyəti tamamilə dəyişə bilər və dayanıqlı sülh yarana bilər.



Biz bunu istəyirik. Ancaq, eyni zamanda, dediyim kimi, münaqişənin tezliklə və mərhələli yollarla həlli torpaqlarımızın azad olunmasından asılıdır. Biz bunu tələb edirik və beynəlxalq hüquq da bunu tələb edir. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Əgər Ermənistan rəhbərliyi bundan sonra da danışıqların uzadılması ilə məşğul olacaqsa, biz öz təcrid siyasətimizi davam etdirəcəyik, bütün vasitələrdən istifadə edib Ermənistanı daha da sarsıdacağıq. Çünki kriminal xunta rejiminin çökməsində Azərbaycanın rolu da az deyil. Onları çökdürən və uçuruma aparan birinci zərbə iki il bundan əvvəl vurulub. Aprel döyüşləri onların çürümüş sütunlarını tamamilə sıradan çıxarıb və ondan sonra kriminal xunta rejimi uçuruma doğru getməyə başlamışdır. Bunu heç kim unutmamalıdır. Əgər iki il bundan əvvəl bu döyüşlər cəmi 4-5 gün davam edibsə və buna baxmayaraq, biz iki min hektar torpağı işğalçılardan azad etdik və indi minlərlə hektar torpağa biz nəzarət edirik. Azərbaycan Ordusunun qüdrətini iyun ayında keçirilmiş hərbi paradda göstərdik. Azərbaycan Ordusu bu gün həm texniki təchizat, döyüş qabiliyyəti, silah-sursat baxımından dünya miqyasında ən güclü ordular sırasındadır, nadir ölkələrdə bizim qədər imkan var. Bizim hərbi qələbələrimiz davam edir. Bu ilin may ayında uğurlu Naxçıvan əməliyyatı nəticəsində 11 min hektar torpaq işğalçılardan azad edildi. İndi oraya həyat qayıdır, əkin işləri aparılacaqdır.

Biz öz siyasətimizi davam etdirəcəyik, daha da güclü olmalıyıq. Bütün beynəlxalq təşkilatlar bizi beynəlxalq və siyasi müstəvidə dəstəkləyir. İqtisadi sahədə Ermənistanla Azərbaycan arasında yerlə göy qədər fərq var. Həm hərbi paradda nümayiş olunan imkanlar, həm də döyüş meydanında göstərilən şücaət, qəhrəmanlıq göstərdi ki, kim kimdir və kim nəyə qadirdir. Biz bütün bu imkanlardan istifadə edirik və edəcəyik. Biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Bir daha demək istəyirəm, Ermənistan rəhbərliyi bilməlidir ki, sülh istəyirsə torpaqlarımızdan öz xoşu ilə çıxmalıdır.

Sizə isə Azərbaycan dövləti bundan sonra da qayğı və diqqət göstərəcək. Buna əmin ola bilərsiniz. Biz əlimizdən gələni edəcəyik ki, bu gün növbədə dayanan şəhid ailələri, müharibə veteranları tez bir zamanda sizin kimi mənzillərlə, maşınlarla təmin olunsunlar.

Mən sizi ürəkdən təbrik edirəm, salamlayıram, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

# Müdafiə naziri cəbhənin müxtəlif istiqamətlərində yerləşən ön xətt bölmələrində olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti müxtəlif istiqamətlərdə yerləşən ön xətt bölmələrində olublar.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə nazirinə ərazinin maketi üzərində əməliyyat şəraiti məruzə edilib. General-polkovnik Zakir Həsənov bölmələrin döyüşə hazırlıq vəziyyətini yoxlayıb, üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və müvafiq tapşırıqlar verib.

Müdafiə Nazirliyinin rəhbərliyi bölmələrin döyüş qabiliyyətini, maddi-texniki təminatını, silah-sursat və hərbi texnika ilə təchizatını, həmçinin şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.



Müdafiə naziri bölmələrdəki şəraitlə tanış olub, şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb.

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən bölmələrin qışa hazırlığını yoxlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində yerləşən bölmələrdə olublar.*

Çətin iqlim şəraitində və dağlıq ərazidə düşmənlə qarşıdurma xəttindəki bölmələrdə olarkən əməliyyat şəraiti barədə məruzəni dinləyən Müdafiə naziri üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanan Müdafiə naziri general-polkovnik Zakir Həsənov qarşıdan gələn qış dövrünə zəruri hazırlıq işlərinin görülməsi barədə vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

Bildirilib ki, ön xətdə yerləşən bölmələr içməli su, istilik sistemləri, yuyunma otaqları, isti yataq və digər lazımi qış ləvazimatları ilə tam təmin olunub.

Sonra nazir sərhədyanı ucqar dağ kəndlərindən birində yerli sakinlərlə görüşərək, yaşayış məntəqələrimizin müdafiəsinin və əhalinin təhlükəsizliyinin təmin edilməsi barədə söhbətlər aparıb.



Müdafiə Nazirliyinin rəhbərliyi ilə söhbət zamanı ucqar dağ kəndinə rahat asfalt yolunun salınması, qaz və işıq xətlərinin çəkilməsinə görə öz məmnunluqlarını ifadə edən kənd sakinləri Müdafiə nazirindən onların minnətdarlığını ölkə rəhbərliyinə, cənab Ali Baş Komandana çatdırmasını xahiş ediblər.

Kənd camaatı Azərbaycan Ordusunun bölmələri tərəfindən bu istiqamətdə yerləşən yaşayış məntəqələrinin təhlükəsizliyinin etibarlı təmin edildiyini və əhalinin hərbçilərə etimadının yüksək olduğunu da bildirib.

Sonra yerli sakinlərlə söhbət çay süfrəsi ətrafında davam etdirilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 avqust 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 81 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqedzor kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 2-də Füzuli rayonu istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

# Müdafiə naziri tikintisi davam edən hərbi obyektlərdə olub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhəboyu zonada səfərdə olan general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti burada tikintisi davam etdirilən hərbi obyektlərdə olublar.

Müdafiə naziri inşaat işlərinin keyfiyyəti ilə maraqlanıb və müvafiq tapşırıqlar verib.

# Azərbaycan uğrunda əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün 20 milyon manat ayrılıb

Avqustun 2-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlərlə bağlı Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20 milyon manat vəsait ayrılıb.

**AZƏRTAC**

# Bakıda "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin təntənəli açılış mərasimi keçirilib

*İyulun 31-də Hərbi Dəniz Qüvvələrinin qərargahında "Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində Bakıda təşkil edilən "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin təntənəli açılış mərasimi keçirilib.*




Açılış mərasimində Müdafiə Nazirliyinin rəhbərliyi, veteranlar, hərbçilər, iştirakçı dövlətlərdən başqa Türkiyə, Pakistan, ABŞ, Vyetnam, Səudiyyə Ərəbistanı, Bəhreyn Krallığı, Bolqarıstan və digər ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri və Hərbi Dəniz Qüvvələrinin rəhbər heyətləri iştirak ediblər.

Mərasimin aparıcıları Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani, Əməkdar artist Cahangir Qurbanov və Rəna Qurbanova Xalq Cümhuriyyətinin 100 illiyini təntənə ilə qeyd edən Azərbaycanda keçirilən bu yarışın əhəmiyyətini yüksək qiymətləndiriblər. Aparıcılar "Dəniz Kuboku-2018"-in Xəzəryanı ölkələr arasında əməkdaşlığın inkişafında rolundan söz açıblar.



H.Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin, incəsənət ustalarının və matrosların iştirakı ilə Azərbaycanın tarixi və milli adət-ənənələrini əks etdirən etnoqrafik etüdlər təqdim edilib.

Sonra "Dəniz Kuboku-2018" müsabiqəsinin hakimlər briqadası və komandalar mərasimə dəvət olunub. Yarışın baş hakimi 1-ci dərəcəli kapitan Həbib Xəlilovdur.

Müsabiqə iştirakçıları - Rusiya Federasiyası Xəzər flotiliyasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandaları dövlət bayraqları altında və hərbi orkestrin müşayiəti ilə meydana daxil olublar. Mərasimdə müsabiqəyə ev sahibliyi edən Azərbaycanın Dövlət himni ifa edilib, üçrəngli bayrağı qaldırılıb.

IV Beynəlxalq Ordu Oyunlarının və "Dəniz Kuboku-2018" müsabiqəsinin bayraqları mərasimə gətirilib. Sonra IV Beynəlxalq Ordu Oyunlarının və "Dəniz Kuboku-2018" müsabiqəsinin bayraqları dalğalandırılıb.

Mərasimdə çıxış edən "Dəniz Kuboku-2018" müsabiqəsinin təşkilat komitəsinin sədri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov tədbirin əhəmiyyətindən danışıb.

General-leytenant Nizam Osmanov deyib: "Artıq bir neçə gündür ki, Rusiya Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının, İran İslam Respublikasının və Qazaxıstan Respublikasının gəmiləri Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku-2018" müsabiqəsində iştirak etmək üçün Vətənimizə gəlib. Beynəlxalq Ordu Oyunları Rusiya Federasiyasının Müdafiə Nazirliyinin təşəbbüsü ilə təşkil olunub. İlk gündən başlayaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin komandaları Beynəlxalq Ordu Oyunlarında iştirak edərək xalqımızı və ordumuzun şəxsi heyətini nailiyyətləri ilə sevindirir. Keçən il Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası "Dəniz Kuboku-2017" müsabiqəsində qalib gələrək Rusiya Federasiyası Xəzər Dənizi flotiliyasının komandası ilə birinciliyi bölüşüblər. Tankçılarımız, artilleriyaçılarımız, aşpazlarımız və snayperlərimiz də müvafiq müsabiqələrdə fərqləniblər. Bu il də komandalarımız Rusiya, Qazaxıstan və Belarus poliqonlarında keçirilən beş növ üzrə müsabiqədə öz güclərini sınayırlar".

Müsabiqənin təşkilat komitəsinin sədri bildirib ki, "Dəniz Kuboku-2018" ölkəmiz və xalqımız üçün əlamətdar bir vaxtda keçirilir. Biz bu il Şərqin ilk demokratik Cümhuriyyəti olan Azərbaycan Respublikasının və Silahlı Qüvvələrimizin 100 illik yubileylərini təntənə ilə qeyd etdik. Yubileylər ilində Rusiya Federasiyası, İran İslam Respublikası, Qazaxıstan Respublikası Hərbi Dəniz Qüvvələrinin müsabiqə iştirakçılarını salamlamaq hər birimiz üçün xoşdur. Təşkilat Komitəsinin sədri kimi bildirirəm ki, IV Beynəlxalq Ordu Oyunları çərçivəsində Azərbaycanda keçirilən "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin şəffaf və yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Azərbaycanın Xəzər dənizindəki ərazi sularında iştirakçılar üç mərhələ və altı epizodda yarışacaqlar. Onların Vətənimizdən xoş təəssüratlarla ayrılacağına əminəm".

General-leytenant Nizam Osmanov vurğulayıb ki, Beynəlxalq Ordu Oyunlarının digər yarışları kimi, "Dəniz Kuboku-2018" də iştirakçı ölkələrin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin inkişafına, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinə, dostluq və rəqabət gücünün artırılmasına, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqlarının daha da yüksəlməsinə xidmət edəcək.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev mərasim iştirakçılarını və qonaqları salamlayıb, onlara Müdafiə nazirinin təbrikini çatdırıb.



General-leytenant Kərim Vəliyev deyib ki, artıq ikinci ildir Xəzər dənizinin Azərbaycana aid hissəsində "Dəniz Kuboku" müsabiqəsi keçirilir. "Beynəlxalq Ordu Oyunlarının yarış növlərinin, komandaların sayının hər il artması və keçirilmə coğrafiyasının genişlənməsi bu oyunların əhəmiyyətinin bariz nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyi Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsü ilə reallaşan Beynəlxalq Ordu Oyunlarına xüsusi önəm verir.

Əminəm ki, keçirilən yarışlar hərbi qulluqçularda həmrəylik hissi oyatmaqla bərabər, iştirakçıların yaddaşında xoş xatirə olaraq qalacaq. Eyni zamanda, "Dəniz Kuboku" müsabiqəsi bütün iştirakçılara ölkəmizi daha yaxşı tanımaq, tarixi yerləri, abidələri görmək və xalqımızın adət-ənənələri ilə tanış olmaq imkanı yaradacaq. Yarışlar döyüş hazırlığı baxımından da böyük əhəmiyyət daşıyır. Birgə keçirilən bu oyunlar hərbi təlimlərdən heç də geri qalmır, hətta onları üstələyir. Yarış zamanı iştirakçıların üzərinə böyük məsuliyyət düşür. Hər mərhələdə hər bir iştirakçının peşəkarlığı və praktiki qərar verməsi tələb olunur", - deyə general-leytenant Kərim Vəliyev qeyd edib.

Nazir müavini diqqətə çatdırıb ki, birincilik əldə etmək üçün komandaların şansları bərabərdir: "Mən inanıram ki, bütün iştirakçılar hərbi vərdişlərini və məharətlərini yüksək səviyyədə nümayiş etdirəcək, əvvəlki illərdə olduğu kimi, yarışlar səmimi dostluq və qardaşlıq mühitində keçəcək. "Dəniz kuboku"nda ölkələrini təmsil etmək şərəfinə nail olmuş komanda üzvlərinə yüksək nəticələr və uğurlar arzulayıram. Güclü olan qalib gəlsin".

General-leytenant Kərim Vəliyev "Dəniz Kuboku" beynəlxalq müsabiqəsini açıq elan edib.

Mərasimdə incəsənət ustalarının, H.Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin və Rusiya Federasiyası Qara Dəniz Donanmasının mahnı və rəqs ansambllarının iştirakı ilə teatrlaşdırılmış kütləvi bədii proqram təqdim olunub.

"Dəniz Kuboku-2018" beynəlxalq yarışlarının açılışına həsr olunmuş təntənəli mərasimin ssenari müəllifi və quruluşçu rejissoru Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbanidir.

Qeyd edək ki, "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində iyulun 28-dən avqustun 11-dək Azərbaycan, Belarus, Qazaxıstan, Çin, İran və Rusiya ərazisində, ümumilikdə, 28 müsabiqə təşkil olunacaq.

Azərbaycan hərbçiləri 5 müsabiqədə iştirak edəcəklər. Hərbçilərimiz ölkəmizdə keçiriləcək "Dəniz Kuboku" ilə yanaşı, Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" və Belarusda "Snayper həddi" müsabiqələrinə qatılacaqlar.

Hərbçilərimiz, həmçinin İranda keçiriləcək "Dərinlik" və Rusiyada təşkil olunacaq "Qoşun kəşfiyyatı əlaçıları" müsabiqələrində ölkəmizi müşahidəçi qismində təmsil edəcəklər.

Türkiyə, Pakistan, Bəhreyn, Səudiyyə Ərəbistanı və ABŞ Silahlı Qüvvələrinin nümayəndələri "Dəniz Kuboku-2018" müsabiqəsinə müşahidəçi qismində qatılıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin ilk epizodları yerinə yetirilib



*"Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmilərinin heyətləri yarış çərçivəsində müəyyən olunmuş birinci mərhələnin ilk epizodunu yerinə yetiriblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi dənizçilər "Dəniz hazırlığı" üzrə yarışda gəminin lövbərə və çəlləyə durması tapşırıqlarını icra ediblər. Mərhələnin sonunda hakimlər briqadasının yekun qərarına əsasən bu epizodun qalibləri müəyyən olunacaq.

Növbəti mərhələdə "Təlim məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə yarışı" üzrə ikinci epizodu yerinə yetirmək üçün hərbi dənizçilər bacarıqlarını nümayiş etdirəcəklər.

* * *

"Dəniz Kuboku-2018" müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmilərinin heyətləri "Gəminin davamlılığı uğrunda mübarizə" üzrə yarışda "Təlim məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə" epizodunu yerinə yetiriblər. Ekipajlar bu epizodda gəminin təhlükəsizliyinin təmin edilməsi, həmçinin gəminin xilas olunması üzrə bacarıq və vərdişlərini nümayiş etdiriblər.



Komandalar növbəti gün "Xilasetmə vasitələrinin istifadəsi" epizodunu yerinə yetirəcəklər.

# Türkiyəli hərbi qulluqçular ailə üzvləri ilə birlikdə Azərbaycanda səfərdədirlər

*Azərbaycan və Türkiyə hökumətləri arasında hərbi-mülki heyətin sosial və mədəni səfərlərinin təşkilinin təmin olunması ilə bağlı razılığa əsasən qardaş ölkənin bir qrup hərbi qulluqçusu və onların ailə üzvləri ölkəmizdə səfərə gəliblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçuların, mülki işçilərin və onların ailələrinin qarşılıqlı ziyarətlərinin təşkili çərçivəsində həyata keçirilən səfər iki ölkə arasında mövcud olan qədim dostluğun, əməkdaşlığın genişlənməsi və əlaqələrin möhkəmləndirilməsinə xidmət edir.

Proqrama uyğun olaraq qonaqların Bakı, Gəncə, Şəmkir və Şəki şəhərlərinə ekskursiyası təşkil edilib. Türkiyəli heyət ölkəmizin qədim tarixi, xalqımızın zəngin mədəni irsi, adət-ənənəsi ilə yaxından tanış olub, mətbəximizə məxsus yemək və şirniyyatlardan dadıblar.



# "Snayper həddi" müsabiqəsinin epizodları icra olunur

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Belarusun Brest təlim poliqonunda keçirilən "Snayper həddi" müsabiqəsində müxtəlif epizodlar icra olunur.

Avqustun 9-dək davam edəcək müsabiqədə Azərbaycan snayperləri öz ustalıqlarını nümayiş etdirirlər.

# "Səhra mətbəxi" müsabiqəsinə start verilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində keçirilən "Səhra mətbəxi" müsabiqəsinə start verilib.

Müsabiqənin hakimləri hərbi aşpazlar tərəfindən hazırlanan müxtəlif təamların dadına baxaraq qiymətləndirməni həyata keçirir.

Yarışlar çərçivəsində "Dostluq evi"ndə Azərbaycanın milli mədəniyyətini əks etdirən sənət nümunələri müxtəlif ölkələrin hərbi qulluqçularına və qonaqlara nümayiş etdirilir.

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il avqustun 1-dək 92.819.877,45 AZN, 213.577,88 ABŞ dolları, 11936,0 avro və 5000,0 rubl vəsait daxil olub.

# ATƏT-in səhra köməkçiləri xocavəndli məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Xocavənd qəsəbəsində olublar

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç avqustun 2-də xocavəndli məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Beyləqan rayonu ərazisində salınmış Xocavənd qəsəbəsində olublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov qonaqları səmimi qarşılayaraq, onları Qarabağda, öz doğma yurdlarında salamlayacağına ümid etdiyini bildirib. Eyvaz Hüseynov qeyd edib ki, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalı, işğal olunmuş Azərbaycan torpaqları tezliklə azad edilməli və öz Vətənində məcburi köçkünə çevrilmiş bir milyon insanın pozulmuş hüquqları bərpa olunmalıdır. Bunun həyata keçməsi, regionda əbədi sülhün təmin olunması üçün isə dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar ədalətli mövqe tutaraq işğalçıya öz yerini göstərməlidir.

Rayon icra hakimiyyətinin başçısı münaqişənin tarixi köklərinə nəzər salıb, işğal edilmiş torpaqlarımızda Ermənistan silahlı birləşmələri tərəfindən qanlı soyqırımı aktlarının törədildiyini, etnik təmizləmə aparıldığını diqqətə çatdırıb.

"Dünyanın güclü dövlətləri ATƏT-in üzvüdürlər. Bu dövlətlərin problemlə bağlı fəaliyyətlərinin heç bir real nəticəsi yoxdur. Nə qədər ki, Avropa dövlətləri erməni yalanlarına inanır, bəzən ona dəstək verir, vəziyyət daha da gərginləşir. Biz də münaqişənin sülh yolu ilə həllini istəyirik. İstəyirik ki, işğal edilmiş torpaqlarımız danışıqlar yolu ilə qaytarılsın. Lakin erməni tərəfi danışıqları uzadır, torpaqlarımızı işğal altında saxlayır. Lakin bütün dünya bilsin ki, Azərbaycan xalqı öz torpaqlarının işğalı ilə heç vaxt razılaşmayacaq və hansı yolla olursa-olsun, öz ərazi bütövlüyünü təmin edəcək", - deyə E.Hüseynov bildirib.

Daha sonra bölgədəki vəziyyətlə bağlı qonaqlara ətraflı məlumat verən icra hakimiyyətinin başçısı rayon ərazisində bütün təmas xətti boyu atəşkəs rejiminin demək olar ki, hər gün pozulduğunu və bir çox hallarda intensiv xarakter daşıdığını bildirib. Hərbçilərlə yanaşı, təmas xəttinə yaxın ərazilərdə yaşayan, təsərrüfat işləri ilə məşğul olan mülki şəxslərin, onlara məxsus avtomobillərin, mal-qaranın Ermənistan ordusu tərəfindən hədəf seçildiyi diqqətə çatdırılıb.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri səmimi qəbul və ətraflı məlumat üçün təşəkkür ediblər.

# Azərbaycan ilə Əfqanıstan arasında müdafiə sənayesi sahəsində əməkdaşlığa dair protokol imzalanıb

Avqustun 2-də Azərbaycan Respublikası ilə Əfqanıstan İslam Respublikası arasında müdafiə sənayesi sahəsində əməkdaşlığa dair protokol imzalanıb.

Protokolun imzalanması Azərbaycan Respublikası Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayevin Əfqanıstan Prezidentinin ölkəmizdə səfərdə olan MDB ölkələri üzrə səlahiyyətli nümayəndəsi Mohammad Şaker Kargarın rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşü çərçivəsində baş tutub.

Müdafiə Sənayesi Nazirliyindən (MSN) AZƏRTAC-a bildiriblər ki, görüşdə Yəhya Musayev Azərbaycan ilə Əfqanıstan arasında müxtəlif sahələrdə inkişaf edən əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayıb. Nazir müavini MSN-in fəaliyyəti barədə nümayəndə heyətinə ətraflı məlumat verib.

Söhbət zamanı iki ölkə arasında müdafiə sənayesi üzrə əməkdaşlığın istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Nümayəndə heyətinin başçısı Mohammad Şaker Kargar səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirib.

Görüşdə Əfqanıstanın Azərbaycandakı səfirliyinin nümayəndələri də iştirak ediblər.

Səfər çərçivəsində nümayəndə heyəti Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində olub və istehsal prosesini yaxından izləyib.

# Gənc əsgərlərin ilk xidmət günü



*Vətən anlayışının nə demək olduğunu dərk edən hər bir azərbaycanlının uşaq yaşlarından bir arzusu, amalı var - hərbi mundir geyinərək Vətən uğrunda savaşmaq, torpaqlarımızı işğaldan azad etmək. Uşaqlar böyüyür... Böyüdükcə vətəndaşlığını, sahib olduğu milli mənsubiyyəti dərk edir... Dərk etdikcə Vətənini sevir. Doğulduğu torpağı qorumaq onun mənəvi borcuna çevrilir. Nəticədə hələ məktəb yaşlarından "böyüyəndə əsgər olacam" deyənlər, ordu sıralarına qatılırlar. Vətəndaşlıq borcunu layiqincə yerinə yetirmək üçün ana torpağa ləyaqətlə xidmət edəcəklərinə and içirlər.*



Gənc əsgərlərin hazırlığı ilə məşğul olan "N" hərbi hissəsindəyik. Nəzarət-buraxılış məntəqəsindən hərbi hissəyə daxil olarkən ordu sıralarına yenicə qədəm qoyan gənclərimizi görürəm. Onların üzündəki sevinci, qüruru müşahidə etməmək mümkün deyil. Gənc əsgərlər ətrafını yaşıl meşələrin sardığı hərbi hissəyə, burada yaradılan şəraitə heyrətlə baxır. Yəqin ki, kütləvi informasiya vasitələrində görüb-eşitdiklərinin təsdiqidir, bu heyranlıq. Başdan-ayağa döşənmiş asfalt örtük, müasir əsgər yataqxanaları, inzibati binalar, idman şəhərciyi və isti yay günlərinə xoş əhval-ruhiyyə qatan sərin dağ havası xidmətə ilk addım atanların ürəyinə su səpir. Gözlərindəki sevinc "sanki mən böyük qələbənin əsgəri olacam", deyir.

Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh olan zabit Süleyman Vəliyev gənc əsgərlərin peşəkar döyüşçü kimi yetişməsi üçün komandanlıq tərəfindən yüksək səviyyəli şərait yaradıldığını dedi.

- Bildiyiniz kimi, ordu sıralarına qatılan gənc əsgərlərin qəbulu davam edir. Bizlər də üzərimizə düşən vəzifəni yerinə yetirərək əsgərlərin bacarıqlı döyüşçü kimi formalaşmasına çalışırıq. Mütəmadi olaraq keçirilən sıra və döyüş hazırlığı dərsləri ilə yanaşı, əsgərlərimizin mənəvi-psixoloji vəziyyəti daim nəzarətdə saxlanılır. Əsgərlərimizdə həm sağlamlığı, həm də dözümlülüyü formalaşdırmaq üçün hərbi hissənin idman meydançasında təcrübəli zabitlərimizin rəhbərliyi ilə fiziki hazırlıq dərsi keçirilir.

Yeni gələn əsgərlərin qəbulu prosesi haqqında maraqlanırıq. Nəzarət-buraxılış məntəqəsindən əsgərləri nizamlı şəkildə qeydiyyata gətirən kiçik çavuş Fərhad Fərhadov onları adlı siyahıya uyğun olaraq şəxsi heyətin uçotu bölməsinə təqdim edir. Kapitan Elşən Qurbanov hər bir əsgərin hərbi biletdəki məlumatlarını dəqiqləşdirir. Haqlarındakı mühüm məlumatları qeyd edir və müayinə üçün tibb məntəqəsinə göndərir. Müasir tibbi avadanlıqları, səliqə-sahmanı ilə sağlamlıq vəd edən tibb məntəqəsində ilk olaraq əsgərlərin boyu və çəkisi qeyd olunmaqla, onlara ilkin tibbi kitabça açılır. Tibb xidməti mayoru Elşad Abbasov gənc əsgərlərin təcrübəli hərbi həkimlər tərəfindən müayinə olunduqlarını və şikayətlərinin qeydə alındığını bildirdi.

- Hər birimiz xidmətin ilk və sonrakı günlərində gənc əsgərlərin, bütövlükdə şəxsi heyətin sağlamlığının keşiyində dururuq. Hərbi hissəmizdə təcrübəli həkimlər xidmət göstərməkdədirlər. Müşahidə etdiyiniz kimi, hər bir əsgər xidmətə başlamazdan öncə müayinə olunur. Bu işi hərbi hissəmizdən seçilən və xüsusi olaraq ezam olunan həkimlər briqadası həyata keçirir. İlkin olaraq "N" hərbi hissəsindən ezam olunan tibb xidməti polkovnik-leytenantı İsmayıl Qantayev və baş çavuş Zaur Sofiyev əsgərlərimizin flüoqrafik müayinəsini həyata keçirirlər. Rentgen aparatından keçən əsgərlər ümumi yoxlama üçün həkim-cərrah, stomatoloq, nevroloq və terapevt tərəfindən müayinə olunur, sağlamlığı təsdiq olunan əsgərlər bölmələrinə göndərilirlər.

Bölmədə gənc əsgərləri səmimiyyətlə qarşılayan leytenant Röyal Yarıyev hər kəsi yataqxana ilə tanış etdi. Sanitar qovşağı, duş kabinələrini göstərərək yaradılmış şəraiti qoruyub saxlamağın hər kəsin borcu olduğunu bildirdi.

- Gördüyünüz kimi, səliqəli, təmiz və göz oxşayan yataqxanamız var. Ən müasir duş kabinələrinin, sanitar qovşaqların varlığının şahidi oldunuz. Tələbim odur ki, sizlər üçün yaradılan bu şəraiti qoruyub saxlayasınız. Çünki bura bizim evimizdir. Həmçinin onu da qeyd edim ki, sizin ilk xidmət anınız buradan başlayır. Bir azdan hərbi mundirləriniz, birinci kateqoriya yataq ağlarınız təqdim olunacaq. Hər kəs formasını geyindikdən sonra yatağını səliqəyə salacaq və nahara yollanacaq.

Komandirin gənc əsgərlərə ilkin tapşırıqlarından sonra gizir Müşviq Məcidov əsgərlərə formalarını və ağları təqdim etdi. Gənc əsgərlər yataq yerləri ilə tanış oldu. Formanı geyinən hər kəsin üzündə "mən Azərbaycan əsgəriyəm", - deyə hayqıran əvəzedilməz ifadəni görürəm...

- Gördüyünüz bu əsgərlər mütəmadi dərslər keçəcək, təcrübəli döyüşçü kimi formalaşacaqlar. Onlar bizim gələcəyimiz, döyüş meydanında silahdaşımız, tezliklə azad olunan torpaqlarımızda tarix yazacaq qəhrəmanlarımızdır. Mən və mənim timsalımda bütün zabitlər öz bilik və bacarıqlarımızı əsirgəmədən gənc əsgərlərə öyrədəcəyik. Dərslər zamanı sıranın müqəddəsliyini dərk edəcək, bir zamanlar Mübariz İbrahimovun, Samid İmanovun, Fərid Əhmədovun, Çüngiz Qurbanovun və digər qəhrəmanlarımızın bu sırada mətinliklə dayandığını anlayacaqlar. Döyüş hazırlığı zamanı aprel zəfərinin başlıca səbəbinin hazırlıqlı ordu, bacarıqlı əsgər tərəfindən qazanıldığını dərk edəcəklər. Fiziki hazırlıq dərslərinin həm sağlamlıq, həm dayanıqlıq, həm də güc olduğunu biləcəklər. Silahların taktiki-texniki xüsusiyyətlərini bilməyin döyüş meydanında onlara yardımçı olacağına əmin olacaqlar, - zabit Röyal Yarıyev deyir.



Nahardan sonra gənc əsgərlər hərbi hissənin ərazisi, inzibati binalar, avtomobil parkı, camaşırxana və digər əhəmiyyətli obyektlərlə tanış olurlar. Onları maraqlandıran suallar cavablandırılır.

Əsgərlərin bir neçəsi ilə həmsöhbət olur, ilkin təəssüratlarını öyrənirəm.

Gənc əsgər Şükür Hacıyev Abşeron rayonundan hərbi xidmətə çağırıldığını, ali təhsilli olduğunu bildirdi. Qərb Universitetinin turizm və otelçilik fakültəsini bitirən gənc dedi ki, Vətəni sevmək üçün səbəb yox, ürək lazımdır. "Yalnız Vətəninə candan bağlı olanlar torpaq uğrunda şəhid olmağın müqəddəsliyini dərk edə bilər. Bizlər doğma Azərbaycanımıza layiqli əsgər olmaq üçün xidmətə gəlmişik. Komandirlərimizin bilik və bacarıqlarını mənimsəyərək Ali Baş Komandanın əmri ilə torpaqlarımızı azad edəcəyik. İlk günümüzün olduqca səmərəli keçdiyini düşünürəm. Bir neçə saatdır forma geyinsəm də, dəyişdiyimi hiss edirəm. Üstümdə daşıdığım formanın verdiyi məsuliyyət və qürur hissini ifadə etmək elə də asan deyil. İnsan həyatında çox az unudulmaz anlar olur. Mənim ən unudulmaz anım da hərbi mundiri geyinib Azərbaycan əsgəri olduğum andır.

Digər həmsöhbətim isə Tovuz rayonundan hərbi xidmətə çağırılan əsgər Tural Novruzovdur. Tural da digər yoldaşları kimi Azərbaycan əsgəri olduğu üçün qürurludur.

- Tarixən qonşularımızın, erməni vandallarının başımıza gətirdikləri faciələr bizim qan yaddaşımızdır. Qisasımızı alacağımız gün uzaqda deyil. Atam hər zaman deyirdi: "Bu torpaq qəhrəmanlar yetişdirir. Mən mərd, cəsarətli, qorxmaz oğul böyütmüşəm. Get və qəhrəmancasına döyüş, torpaqlarımızı azad edənlər sırasında mətinliklə dayan". Mən də torpaqlarımızı azad etmək üçün gəlmişəm. Bunun üçün də ilkin olaraq əsl döyüşçü kimi formalaşacam.

Tezliklə döyüş postlarında xidmətə başlayan gənc əsgərlərimizin qələbə reportajının qəhrəmanları olmasını arzulayaraq vidalaşır, uğurlu xidmətlər diləyirik...




**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU



# "Artilleriya atəşinin ustaları" müsabiqəsinə start verilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan hərbçiləri "Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsinin təntənəli açılış mərasimində iştirak ediblər.





* * *

Azərbaycan hərbçilərinin də iştirak etdiyi "Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında plana uyğun olaraq mərhələlər üzrə keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsinə start verilib.

*Gənc əsgərlərin hazırlığı*

# "Vətəni qorumağa gəlmişik"

*Bacarıqlı, yüksək döyüş hazırlığına malik olan əsgər ordunun onurğa sütunudur. Müasir silah və texnikadan istifadə etməyi bacaran, istənilən hərbi əməliyyatı yerinə yetirməyə qadir olan əsgərlərin olmasa, hansısa qələbədən danışmağa dəyməz. Hərbi xidmətə gələn gənclərin isə hərbi biliklərə yiyələnməsi, silah və texnikadan istifadə qaydalarını öyrənməsi məhz gənc əsgər hazırlığından başlanılır. Hərbi xidmətin əlifbasını öyrənmək həmin dövrə təsadüf edir. Bu gün ordumuzun bütün birləşmələrində gənc əsgərlərə yüksək səviyyədə təlim keçirilir. Üç aylıq gənc əsgər hazırlığı dövründə onlara atəş hazırlığından, döyüş taktikasından, sıra hazırlığı, ictimai-siyasi hazırlıq və digər hərbi biliklərdən əyani və praktiki məşğələlər təşkil olunur.*

Hərbi hissələrdən birində gənc əsgər hazırlığının yüksək səviyyədə təşkil olunmasının şahidi oldum. Keçirilən atəş hazırlığı dərsini izlədim. Leytenant Bəhlul Əlişov gənclərə "AKM-74" avtomatının sökülüb-yığılması, təyinatı, hissə və mexanizmləri haqqında praktik məşğələ keçirdi. Bəhlul Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində mənimsədiyi bilikləri əsgəri xidmətə gələn gənclərə öyrədirdi. Dərsin gedişindən hiss olunur ki, Bəhlul gənc olmasına baxmayaraq, seçdiyi peşənin sirlərinə dərindən yiyələnib.

"Seçdiyin peşədən asılı olmayaraq, hər kəs işinə sevgi ilə yanaşmalı, gördüyü işdən mənəvi zövq almalıdır. O zaman həmin sahədə uğur qazanmaq olar. Hərb peşəsini öz istəyimlə seçmişəm və bu peşəyə ürəkdən bağlıyam. Kursant olarkən təcrübəli zabitlərimiz tərəfindən hərbi biliklərə dərindən yiyələnmişəm. Bütün dərslərdə həvəslə iştirak edir, peşəkar müəllimlərimiz tərəfindən öyrədilən biliklərə dərindən yiyələnmək üçün səy göstərirdim. Bu gün həmin əziyyətlərimin bəhrəsini görürəm. Əsgəri xidmətə gələn gəncləri çətinlik çəkmədən öyrədirəm. Onlar da öyrənməyə həvəs göstərir. Hər biri avtomatın təyinatını, hissələrini, sökülüb-yığılmasını yaxşı mənimsəyiblər. Gənclərin dərsə olan marağı məni daha da həvəsləndirir. Əminliklə deyə bilərəm ki, təlim kursunun sonunda hər biri bacarıqlı əsgərlər kimi formalaşacaq", - leytenant B.Əlişov deyir.



Sözünü davam etdirən zabit bildirir ki, bugünkü dərsimizin mövzusu avtomatın iş mexanizmidir: "Bu dərsdə əsgərlərə avtomatın atışa hazır vəziyyətə gətirilməsi, zərbə-tətik mexanizminin necə işləməsi və tətiyə basdıqdan sonra gedən digər proseslər haqqında məlumat verirəm. Hərbi xidmətin hələ astanasında olmalarına baxmayaraq gənclərin hər biri dərsə fəallıq göstərir, avtomatın hissələrini əzbər deyir, sərbəst şəkildə söküb-yığırlar".

Dərs prosesi başa çatdıqdan sonra əsgərlərlə də söhbətləşirəm. Hərbi xidmətə Qaradağ rayonundan çağırılan əsgər Nurlan Nərimanov təlim dövründə öyrəndiklərindən danışır:

- Əsgər olacağım günü hər bir gənc kimi mən də səbirsizliklə gözləyirdim. Ordumuz qürur mənbəyimiz olaraq hər birimizin sevgisinə və rəğbətinə sahibdir. İndi biz də Azərbaycan Ordusunun əsgərləriyik. Bu isə böyük fəxrdir, sevincdir. Bu xidmət mənəviyyat borcumuzdur. Borcun öhdəsindən uğurla gəlmək hər birimizin arzusudur. Onun üçün keçirilən bütün məşğələlərdə fəal iştirak edir, bacarıqlı əsgərlər kimi formalaşmaq üçün həvəs göstəririk. Artıq bir çox hərbi biliklərə yiyələnmişəm. Avtomatı sərbəst söküb-yığır, hissə və mexanizmlərini, onların funksiyalarını yaxşı öyrənmişəm. Bizim tək amalımız var - hərbi biliklərə və vərdişlərə dərindən yiyələnib, Ali Baş Komandanımızın döyüş əmri ilə Qarabağımızı düşməndən azad etməyə hər an hazır olan əsgərlər olmaq.

"Vətəni qorumağa gəlmişik, Vətəni qoruyuruq", - əsgər Seymur Kiçikbəyov deyir. - Hərbi xidmətə Şabran rayonundan çağırılmışam. Təlim müddətində komandirlərimizin öyrətdiklərinə diqqətlə qulaq asır, verilən tapşırıqları həvəslə yerinə yetiririk. Atəş hazırlığı həvəslə gözlədiyim dərslərdəndir. Silahlara qarşı uşaqlıqdan marağım olub. Artıq bütün normativləri vaxtında və düzgün icra etməyi bacarıram. Təlim kursunu başa vurub səngərə, düşmən qarşısında dayanmağa gedəcəyik. Bizə ata-babalarımızdan əmanət qalan torpaqlarımızı göz bəbəyi kimi qoruyacağıq. Digər silahdaşlarımız kimi biz də mövqelərimizi inamla qoruyacaq, düşmənə keçilməz sədd olacağıq.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## PKK-nın beş üzvü məhv edilib



Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları ölkənin Şırnak bölgəsində terror aktı törətməyə hazırlaşan beş PKK mənsubunu məhv edib.

PKK terrorçularının yeri və hərəkət istiqamətləri pilotsuz aparatlarla müəyyənləşdirilib.

Hakkarinin Yüksekova rayonunda isə PKK tərəfdarlarının əvvəlcədən yola quraşdırdıqları partlayıcının işə salınması nəticəsində Nurcan Karakaya və 11 aylıq körpəsi həlak olub. N.Karakaya övladı ilə birlikdə bölgədə hərbi xidmətdə olan həyat yoldaşına baş çəkməkdən geri qayıdarkən mülki maşında terrorçuların hədəfinə tuş gəlib.

## İordaniya ordusu Suriya ilə sərhəddən keçməyə cəhd edən İŞİD terror qrupunun bir neçə üzvünü zərərsizləşdirib



İordaniya Silahlı Qüvvələri ölkənin Yarmuk çayı ərazisində və şimal sərhədlərinə yaxın kəndlərdə Suriya ilə sərhəddən qanunsuz keçməyə cəhd edən İŞİD terror qrupunun bir neçə üzvünü zərərsizləşdirib.

Onuncu sərhəd batalyonu gün ərzində terrorçulara bütün silah növlərindən atəş açmaqla hücum edib. Bombardman və təmizləmə əməliyyatı çərşənbə axşamı və çərşənbə günü günortayadək bütün rayon üzrə davam etdirilib. Əməliyyat nəticəsində bir neçə terrorçu zərərsizləşdirilib, qalanları isə geriyə - Suriya ərazisinə qaçmağa məcbur olub.

Hərbi mənbə vurğulayıb ki, İordaniya Silahlı Qüvvələri tam döyüş hazırlığı vəziyyətindədir və gələcəkdə də terrorçu qruplara və ünsürlərə dövlət sərhədini keçməyə imkan verməyəcək.

## Ermənistanda siyasi gərginlik artır



Ermənistan Respublikaçılar Partiyasının parlamentdəki fraksiyası ölkənin sabiq prezidenti Robert Köçəryanın həbsi ilə bağlı bəyanat yayıb.

Bəyanatda hökumətin demokratiyaya, hüququn aliliyinə və məhkəmə orqanlarının müstəqilliyinə zidd qərarının baxılması üçün beynəlxalq məhkəmələrə göndəriləcəyi bildirilib.

Bəyanatda vurğulanıb ki, R.Köçəryana qarşı qaldırılmış cinayət işi daxili siyasi vəziyyətin daha da gərginləşməsinə gətirib çıxaracaq. "Əsassız ittiham cəmiyyətdə parçalanma meyllərinin güclənməsinə səbəb olur ki, Ermənistanın və "Artsax"ın ətrafında cərəyan edən təhlükəli hadisələr fonunda ciddi narahatlıq doğurmaya bilməz", - deyə parlament fraksiyası üzvləri hökumətə xəbərdarlıq edirlər.

## Meksikada təyyarənin qəzaya uğraması nəticəsində 98 nəfər xəsarət alıb



Meksikanın Duranqo ştatında "Aeromexico" aviaşirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində xəsarət alanlardan 98-i xəstəxanaya yerləşdirilib.

Bu barədə Duranqo ştatının qubernatoru Xose Rosas Aispuro məlumat verib.

Hadisə Quadulupe Viktoriya adına beynəlxalq hava limanının yaxınlığında baş verib. Embraer 190 təyyarəsi uçma-enmə zolağından təxminən 300 metr aralıda yerə çırpılıb. Qəfil şiddətlənən küləyin hadisəyə səbəb olduğu bildirilir.

Qəza nəticəsində ölən olmayıb. Təyyarənin göyərtəsində 97-si böyük yaşlı, ikisi uşaq sərnişin və 4-ü ekipaj üzvü olmaqla 103 nəfər olub.

**AZƏRTAC-ın materialları əsasında**

*Redaksiyamızın poçtundan*

# Sabahın əsgərləriyik!

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qürurla deyir ki, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır.*



Bir məktəbli olaraq bu fikirlə biz də qürurlanırıq. Gündən-günə güclənən, inkişaf edən bir dövlətdə boya-başa çatmağımızla, gəncləşməyimizlə qürurlanırıq. Belə bir ordunun əsgəri olacağıq. Ordumuzun gücünə, qüdrətinə biz də inanırıq, biz də güvənirik.

Dövlətimiz biz məktəblilərin vətənpərvərlik ruhunda formalaşmasına xüsusi diqqət yetirir. Biz məktəblilər ulu öndərimiz Heydər Əliyevin ideyaları əsasında təhsil alır, böyüyürük. Bu ideyalar müxtəlif tədbirlərlə həyata keçirilir. Belə tədbirlərdən biri də Müdafiə Nazirliyi ilə Səbail rayon İcra Hakimiyyətinin birgə layihəsi olan "Gənc Heydərçilər"in yay istirahət düşərgəsidir. Biz bu düşərgədə 15 gün əsl hərbçi həyatı yaşadıq, hərbi xidmətin nə olduğunu burada əhatəli şəkildə gördük, öyrəndik. Yay istirahət düşərgəsi bizə də, yaşıdlarımıza da xoş anlar yaşatdı. Yay istirahət düşərgəsində olmasaydıq, döyüş texnikalarıyla, atıcı silahlarla necə tanış ola bilərdik? Bu tanışlıq bizim də ömrümüzə yazıldı. Bu günlərin xoş təəssüratını heç zaman unutmarıq, unutmayacağıq.

Yay istirahət düşərgəsində müxtəlif tədbirlər bizim də bildiklərimizi dərinləşdirdi, müxtəlif mövzuda söhbətlər, diskussiyalar həm dünyagörüşümüzü zənginləşdirdi, həm də istirahətimizin mənalılığını təmin etdi.

Burada digər uşaqlarla xoş anlar yaşadıq. Bizim hərbi xidmətə marağımız daha da dərinləşdi. Məktəbə qayıdandan sonra təəssüratlarımızı yoldaşlarımızla bölüşəcəyik. Belə bir istirahətə görə Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürümüzü bildiririk.



Biz məktəbliyik. Bizim Vətən qarşısında bu yaşda borcumuz yaxşı oxumaqdır. Dərslərimizi bundan sonra da həvəslə oxuyacaq, Vətən qarşısında ən gərəkli borcumuzu yerinə yetirməyə tam hazırlıqlı olacağıq. Biz sabahın əsgərləriyik. Biz də Vətənimizi bu günün əsgərləri kimi sədaqətlə qoruyacaq, Vətənə layiqli oğul olduğumuzu təsdiqləyəcəyik.

Hörmətli redaksiya!

"Gənc Heydərçilər"in yay istirahət düşərgəsi layihəsini həyata keçirənlərə, istirahət müddətində bizim özümüzü hərbçi kimi hiss etməyimizə şərait yaradan zabitlərə dərin minnətdarlığımızı çatdırmaq istəyirik.

**İmran ASLANLI,**
**Emin İSMAYILLI,**
**Orxan İSMAYILLI**

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin nəzərinə

*Müdafiə Nazirliyinin hərbi hissələrinə müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan, ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək hərbi vəzifəlilər avqustun 1-dən 20-dək müvafiq sənədlərlə birlikdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, eləcə də hərbi birliklərin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.*

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir. Hərbi Həkim Komissiyasının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə 3 (üç) il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə, çap variantı 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin təsdiq edilmiş surəti - 2 nüsxədə;
- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə;
- məhkumluğun olub-olmaması barədə qeydiyyatda olduğu rayon Polis İdarəsi (şöbə, bölmə) tərəfindən verilmiş arayış.



**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi) və hərbi birliklərin qərargahları.

**Müraciət etmə vaxtı:** 2018-ci il avqustun 1-dən 20-dək, hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 14.00-dək.

**Telefon:** (012) 538-85-62.

**Qeyd:** Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin hər hansı bir maddəsilə (156-cı maddənin "a" bəndi (xidmət müddəti başa çatdığına görə) istisna olunmaqla) ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğu olan hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

# Antalyada Azərbaycan şəhidləri abidəsi açılıb

*Antalyada, Kəpəz bələdiyyəsində Milli Məclisin deputatı Qənirə Paşayevanın təklifi əsasında Azərbaycan şəhidləri abidəsinin açılışı olub.*

Kəpəz bələdiyyəsinin sədri Hakan Tütüncü tədbirdə çıxış edərək abidənin açılmasının bugünkü və gələcək nəsillər üçün önəmi barədə danışıb.

Qənirə Paşayeva çıxışında bu addımın bütün türk dünyası bölgələri üçün gözəl bir örnək olduğunu deyib. O, Azərbaycanla Türkiyənin bəzi şəhərlərinin və bələdiyyələrinin qardaş şəhərlər və bələdiyyələr olduğunu bildirərək, Kəpəzin də Azərbaycanın bölgələrindən biri ilə qardaşlaşmasının arzuedilən olduğunu deyib.

Hakan Tütüncü Azərbaycanla bütün istiqamətlərdə əməkdaşlığın inkişafına xüsusi önəm verdikləri, qardaş bələdiyyələr məsələsi ilə də bağlı addımlar atılacağını bildirib.

Milli Məclisin deputatı qardaş Türkiyədə terrorla mübarizədə şəhid olmuş insanlara Allahdan rəhmət, yaxınlarına səbir diləyib, terroru və onun arxasında duranları lənətləyib. Azərbaycanın erməni terrorundan çox əziyyət çəkdiyini vurğulayan deputat terrorla mübarizədə ölkəmizin hər zaman qardaş Türkiyənin yanında olduğunu deyib.

Açılış mərasimində yüzlərlə yerli sakin iştirak edib.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 471
Nüsxə 3525